# KEÇMİŞİN FƏLSƏFƏSİ VƏ YA TARİX NECƏ YAZILIR?

*Əvvəli jurnalın 284-cü (aprel 2010), 286-cı (iyun 2010), 287-ci (iyul 2010), 288 - ci (sentyabr 2010), 289 - cu (oktyabr) və 290 - cı (noyabr) nömrələrində*

***Hamlet İSAXANLI***



***Keçmiş keçib gedib. Bu, məntiqi cəhətdən həqiqət olsa da, o qədər də sadə həqiqət deyil. Keçib gedən bizim keçmişimizdir, biz o keçmişdən əmələ gəlmişik. Kimliyimizi, mahiyyətimizi o keçmişsiz təsəvvür etmək mümkün deyil. Biz öz keçmişimizə bağlıyıq. Biz keçmişimizin davamıyıq.***

***Bəşəriyyətin keçmişi necə olub? Bu barədə əfsanələr, miflər və tarix söz deyir. Tarix daha dəqiq məlumat verməyə çalışır. Əslində, biz keçmişi tam deyil, tarixin bizə söylədiyi qədər bilirik. Başqa sözlə desək, tarixin məzmunu keçmiş haqqında bildiklərimiz və öyrənib yazdıqlarımızdan ibarətdir. Tarixin məzmunu və tutumu ayrı-ayrı şəxslərin, tarixçilərin yazıb toplaya bildiyi qədərdir. Tarix subyektivdir, nisbidir, tarix yazanların iradəsindən, ideyasından, şəxsiyyətindən, gücündən müəyyən dərəcədə asılıdır.***

***Keçmişin təbiəti və ruhu nədir? Keçmiş necə dərk olunur? Bəlkə keçmiş kəşf olunur? Keçmişin dərkində subyektivlik varsa, keçmişi öyrənən tarix nədir, elmdir, yoxsa sənət? Tarixi subyektiv edən hansı amillərdir? Tarix gözəldir; bu gözəllik öz heyranlarını yoldan, başdan çıxarmırmı, tarix təhlükə törədə bilərmi? Tarix necə yazılır və ya necə yazılsa yaxşıdır?***

***Bu və buna bənzər suallar tarixin fəlsəfəsinə aiddir. Bu yazı keçmişdə baş verənlərin dərki ilə məşğul olan tarixin mahiyyəti haqqındadır. Elm və sənətin qovşağında yer tutan tarixin fəlsəfəsi, çox güman ki, tək tarixçilərə və filosoflara deyil, bəşəri düşüncələrə dalan hər kəsə maraqlıdır.***

## Çərçivələr içində tarixyazma

Tarixyazmada önyarğılar gerçəyi görməyə mane olur. Bu barədə və ümumiyyətlə, tarixçinin yaradıcılığında müəyyən qəliblərin, çərçivələrin, kimliklərin oynadığı mənfi rol haqqında bu yazının əvvəlki hissələrində söz açmışdıq. İndi bu məsələyə daha sistemli şəkildə yanaşmaq fikrindəyik. Məqsədimiz əvvəl yazdıqlarımızıdan müəyyən çıxarışlar etmək və tarixin təhrifinə gətirib çıxaran səbəblər küllisini bütövlükdə öyrənməkdir.

Tarixyazmada hər şeydən əvvəl və hər şeydən mühüm olan sənədlər hər şeyi həll etmir. **Sənədlərin etibarlılığı** əsas məsələlərdəndir. Sənədlər az isə, onları bir-biri ilə müqayisə imkanı yoxsa iş çətinləşir, boş qalan yerlər necə doldurulacaq? Həyat və tarix mürəkkəb, çoxcəhətlidir. **Sənədlər birtərəfli, yarımçıq təsəvvür verir**. Sənədlər deyil, onları danışdıran tarixçi (hakim) vacibdir. Sənədlərin nə söylədiyini **tarixçinin gücü** müəyyən edir. Voltaire`ə görə tarixçi heç bir faktı gizləməməlidir, bir fakt əhəmiyyətsiz hesab edilib kənarlaşdırılarsa və ya təhrif edilərsə, digərlərinin mənası pozulacaq, əhəmiyyəti azalacaq.[1] Bu gün də mənbələri nəşr edərkən bəzi "xoşa gəlməyən" faktların, hissələrin gizlədilməsi, aradan çıxarılması baş verir. Üstəlik, tarix mürəkkəbdir və mükəmməl deyil; sənədlər onu tam əks etdirə bilmir. Yeni sənədlər, qazıntılar, yeni tarixçi bu mənzərəni daha dolu edir. Bu mənada tarix heç zaman dəqiq və mükəmməl olmur, **tarix həmişə yarımçıqdır**. Öyrənilən, nə qədər dərin olsa da, son deyil!

Tarixçi yaşadığı zamanın düşüncəsi ilə hərəkət edir (bir çox hallarda özündən asılı olmadan), "keçmişə gedə bilmir". İndiki zamanla keçmiş arasındakı fərqi nəzərə almadan **keçmişin düşüncəsini cağdaşlaşdırmaq** azarı var bəzi tarixçilərdə və tarixdən istifadə edənlərdə. Keçmişdə, xüsusilə uzaq keçmişdə yaşamış insanların sosial-mədəni-psixoloji vəziyyətini anlamaq çox vacibdir. Onlara

[1] А.Л.Шапиро. Историография с древнейших времен по XVIII век

xas olmayan əxlaq normaları və hisslərini, düşüncə tərzini onlara yapışdırmaq olmaz. Tarix canlı adamların və onların təşkil etdiyi cəmiyyətin tarixidir! Tarixçi öyrəndiyi tarixi yaşamağı, canlı görməyi, yenidən oyatmağı bacarmalıdır. Tarixin mövzusu keçmiş zaman içində insanlardır, keçmişin ritmini tutmayan tarix həqiqətdən uzaqlaşır, sanki keçmişdə yaşayan bugünkü insanlardan bəhs edir, ogünkülərdən deyil. O dövrdə yaşamış insanların dilinin təhlili, o dövrün ədəbiyyatı bu baxımdan tarixə böyük töhfə verir.

Tarix tarixçinin əsəri olan kimi, tarixçi də müəyyən dərəcə tarixin əsəridir. Hər dövr tarixi öz dövrünün ruhuna uyğun yazır, bu baxımdan, "tarix heç vaxt tamamlanmır" demək olar. Digər tərəfdən, tarixçinin, tənqidi düşüncə sahibinin öz dövründən təcrid olunaraq düşünməsi, yaratması mümkündürmü?! R.G. Collingwood'a görə keçmişi anlamaq, tarixi dərk etmək yalnız bu günün, tarixçinin yaşadığı dövrün baxışı, düşüncəsi ilə mümkündür; idrak nəzəriyyəsi bunu deyir.[2]

Cürbəcür **"izm"lər** tarixçini çərçivəyə salır. Avropamərkəzçilik, etnomərkəzçilik, tarixi materializm, idealizm, orientalizm, kolonializm, istisnaçılıq (exceptionalism) (ABŞ, Rusiya,...), sosial Darvinizm və sair cərəyanlar tarixin şərhinə və yazılmasına öz (əvvəlcədən mənimsənilmiş, öyrənilmiş, sevilmiş) qəlibləri ilə yanaşır. Bu "izm"lər sanki hər məsələyə xüsusi yanaşma tərzi formalaşdırır, sanki universal üsul icad edilir. Bəzi tarixçilərin, filosofların içində sanki bir **universalizm** azarı hökm sürür, onlara bəlli sxemlərlə hər şeyi izah etmək metodologiyanın varlığı və gücü kimi qiymətləndirilir. Marksistlər kimi, hər şey yalnız bir baxış bucağı ilə izah və şərh edilir. Hər hansı çərçivə, sxem yalnız qismən izah edə bilər, müəyyən kömək edə bilər (və edir də). Uydurulmuş, amma akademik forma geydirilmiş cərəyanlar, azadlıq hərəkatları, siniflər mübarizəsi ideyaları (çox zaman əsl feodalçılıq tarixi əvəzinə), sərkərdəni və rəhbəri ideallaşdırmaq cəhdi tarixin təhrifinə səbəb ola bilir.

Bu yerdə tarixşünaslıqda və fəlsəfədə həllini tapmamış bir məsələ də yada düşür**: tarixdə şəxsiyyətlərin rolu**. Dövrün və tarixi hadisənin şərhində, qiymətləndirilməsində böyük şəxsiyyətlərin – hökmdarların, inqilabçıların, qəhrəmanların, rəhbərlərin, sərkərdələrin ideallaşdırılması, rolunun şişirdilməsi (yenə əsl feodalçılıq tarixi əvəzinə) və ya azaldılması, yaxud da inkar edilməsi baş verir (tarixçinin mənsub olduğu məktəbdən, cərəyandan və ya siyasi-ideoloji səbəblər üzündən). Nəticədə, tarixi təhlil birtərəfliliyə doğru meyl edə bilir.

Tarixi dövrləşmələrin lokallığı və nisbiliyi, hadisə və faktların şərhini istər-istəməz mahiyyətcə onlara yaxın olmayan sxemlərə bağlayır, bu isə səthiliyə, hətta təhriflərə gətirib çıxara bilir. Tarix arakəsilməzdir, **tarixin dövrləşməsi**, müəyyən aralıqlara bölünməsi şərtidir; bu da bir çərçivədir. Biri üçün köməkçi olan dövrləşmə digərinə görə mənasız ola bilir.

**Qrup kimlikləri** tarixin birtərəfli şərhinin və yazılmasının ən əsas səbəblərindəndir. Özünə, öz kimliyinə sevgi və başqasına biganəlik, bir sıra hallarda isə nifrət tarixin yazılmasında önyarğılara qanad verir, qarşıya sərt qəliblər qoyur. Öz xalqının, millətinin (və başqalarının) tarixi birtərəfli şərhlərlə dolu olur. Milliyyətçi tarix həmişə obyektivliyini itirmək təhlükəsi ilə üz-üzədir; o, əsasən xeyirin şər üzərində qələbəsi tarixi kimi yazılır. Qrup kimlikləri ilə bağlı tarixlər o tarixləri bəzəyən cürbəcür rəmzlərlə, bayraqlar, şüarlar, müqəddəslər, miflər və qəhrəmanlarla zəngindir.

Tarixi insanlar yaradır və yazırlar. Sonra isə onlar öz yaratdıqları miflərin təsiri altına düşürlər. Piqmalyon əfsanəsində olduğu kimi, yaratdığımız və bir hissəsini də uydurduğumuz tarixi heykəli çox gözəl görüb ona aşiq oluruq, onun əsiri oluruq, onu bu günə qədər gətirməyə çalışırıq. **Tarixdə (tarixyazmada) böyük təhlükə var.** Yazılı tarixdən çoxçox əvvəlki xalqları milliləşdirmək, əraziləri bugünkü xalqlara vermək cəhdləri ilə doludur tarix elmi, tarix sənəti. Tarixə işıq tutmaq istəyən filoloji çalışmaların bir qismi də tarixi uzaq keçmişlərə, çox zaman da tarixöncəsinə daşımaq məqsədi güdür.

"Tariximizi xilas etmək" çağırışları güc qazanır. Artıq hamıya qəbul etdirilən, qanuniləşən milli tarixi, böyüklərin yaratdığı mifi kiçiklər qəbul edir; qəbul etməmək xainlik və satqınlıq sayılır. Milli, dini, ideoloji və digər kollektiv kimliklər tarixi miflərin əsas qaynaqlarıdır. Tarix elmindən qarşıya qoyulan məqsədi qanuniləşdirmək üçün sui-istifadə edilir. Kimlik sousuna bulaşmamış "alternativ tarixlər"ə ehtiyac var (bu, tarixə alternativ demək deyil). Tarix ziyan vura bilir, savaş gətirə bilir. İndiki zamanın tələbi, istəyi üzrə yazmaq, tarixi arzuların, xəyalların tarixinə döndərmək, gücü məlum mifin, əfsanənin isbatına yönəltmək, ümumiyyətlə apriorizm tarixi elmdən qoparıb sənətə yaxınlaşdırır.

[2]Р. Дж.Коллингвуд. Идея истории. Автобиография. "Наука", Москва,1980; с.59+

"**Tarixin faydası və ziyanı** ola bilər" tezisi də tarixyazmada, tarix təhsilində və tədrisində xeyli yer tutur və tarixi saxtalaşdırmağa tərəf aparır. Tarix, əksər hallarda, tarixən siyasətə qulluq edib, bu xidmət mühüm dərəcədə davam etməkdədir. Nitşedən üzü bu yana bəzi tarixçi, alim və filosoflara görə həyat üçün miflər vacibdir; tarix ədalətə və ya obyektiv həqiqətin axtarılmasına deyil, mənəviyyata xidmət etməli, cəmiyyətə fayda verməlidir. Bu, tarixin əsasən yazı sənəti olması fikrini önə çəkir, tarixi elmilikdən çıxarmağa yönəlir. Elm və tərəqqi isə illuziyaların dağılmasında, gerçəkliyin dərk olunmasındadır.

Tarixyazmada **milli təəsübkeşlik çərçivəsi**ni bir misalla nümayiş etdirək. A. Okladnikov Sibir tarixi kontekstində düşünərkən avrosentrizmi haqlı olaraq tənqid edir, lakin Sibirin fəthi məsələsini tam rusosentrizm və antitatar ruhunda şərh edir. "...tarix Rusiyada tatar əsarətinin (boyunduruğunun) son yuvalarının – Qazan və Həştərxanın fatehi-çarı (İvan Qroznı-H.İ.) Sibirdə tatar xanlığının "paytaxtı"nı darmadağın edən azad kazakların başçısı (Yermak-H.İ) ilə birləşdirdi".[3] Okladnikov burada Ivan Qroznı (1530-1584) və onun müasiri olan kazak atamanı Yermakın (?1532/42 - 1585) eyni işi gördüklərini, türk-tatar xanlıqlarını (Qazan, Həştərxan, Krım, Sibir) fəth etməyə çalışdıqlarını demək istəyir. Elə oradaca Okladnikov sevinə-sevinə dekabrist-şair Rıleyevin Sibir xanlığının paytaxtı Qaşlıqın sahibi Şeybanid Küçüm xan haqqında "mənfur tat-çar?`" sözünü yada salır və gecikmədən həmin qaralama kompaniyasını bir qədər də gücləndirir: "amma burası da var ki, Küçümü sözün tam mənasında Sibirin çarı hesab etmək olmaz: o, yalnız yırtıcı çöl feodallarından biri olub...".[4] Qaşlıq indiki Tobolsk şəhərinin yaxınlığında yerləşibmiş, "qışlaq" sözündəndir.

1582-ci ilin sonlarında Yermakın və Küçümün dəstələri arasındakı əsas savaşda Yermak qələbə çaldı ("tüfəng ox üzərində qələbə çaldı" – С.М. Соловьев). Lakin bu, tam qələbə deyildi, Küçüm Yermaka qarşı mübarizəsini davam etdirdi, getgedə üstünlük onun tərəfinə keçdi. 1585-ci il avqustun 6-da Küçüm hücuma keçərək, Yermakın dəstəsini tam məğlubiyyətə uğratdı, Yermak özü də öldü. Ruslar Sibirdən geri çəkilsələr də, artıq Sibir xanlığının güclənməkdə olan və odlu silahlarda böyük üstünlüyü olan Rusiyaya qarşı uzun müddətli gərgin müqavimət göstərmək gücü yoxdu.

Yeni hakimiyyətə gələn Boris Qodunov iki dəfə, Küçümün oğlu və keçmiş sərkərdəsi vasitəsilə, Küçümə çar xidmətinə keçməyi təklif etdi, lakin Küçüm istəmədi. 1598-ci ildə Küçümün ordusu ruslara uduzdu, nəvəsi Arslan əsir düşdü. Arslanı Kasimov xanlığına göndərdilər və 1614-də o, Arslan Aleyeviç adı ilə Kasimov xanı elan olundu. Küçüm 1598-ci ilin payızında buxaralılar tərəfindən aldadılıb pusquya salındı və öldürüldü. Göründüyü kimi, mənfur "tat-çar" və "yırtıcı çöl feodalı" çox da bacarıqsız və əsilsiz deyildi.[5] Məlum olduğu kimi, Şeybanidlər Çingiz xanın nəvəsi Cuçinin oğlu Şibanın törəmələri olmuşlar. Yermakın əsli barədə isə tarixçilər yekdil fikir əldə etməyiblər, hətta onun türk-tatar əsilli olması belə variantlardan biridir.

Okladnikova görə, "Sibirin mənimsənilməsini, Sibirdən istifadə edilməsini, Sibirə yiyələnməni səhv olaraq istila adlandırmışlar"... "A. Radişşev bu böyük tarixi prosesi... sərrast "Sibirin əldə edilməsi" (qazanılması) deyə adlandırmışdı". [6]

"**Tarix elmdir, yoxsa sənət**?" kimi uzunömürlü problem tarixin məna və məzmununa iki baxış bucağıdır. Elmdirsə, tarixi hadisələr ciddi elmi yolla sübut olunacaq, tarix obyektiv (keçmiş) gerçəkliyi əks etdirəcək, tarixin qanunları müəyyən ediləcək, tarix vasitəsilə gələcəyi proqnozlaşdırmaq olacaq, cəmiyyət tarixin dərslərindən fayda alacaq. Tarix sənətdirsə, o, keçmişin bərpası deyil, tarixçinin kəşfidir, tarixçinin əsəridir. Bu halda tarix yazıçılığı ortaya çıxır, tarixyazanın gücünə mütənasib olan subyektiv tarix meydana çıxır. Gözəl tarix yaratmaq, yazmaq, o gözəlliyi vəsf etmək, o gözəlliyin işığından faydalanmaq əsas məsələyə çevrilir. "Tarix ələ aldığı subyektin hegemonluğu altına girmiş bir "ədəbiyyat"dır əslində".[7]

Əslində, ən doğru görünən fikrin "tarix iki mədəniyyətin qovşağındadır, elmi üsullarla, sənəd, arxiv, analiz və sintezlə hadisələrin mahiyyətinə varılır" olduğunu qeyd etmişdik. Təbii ki, həm mənəvi

---

[3]А. Окладников. Открытие Сибири. «Молодая гвардия», Москва, 1979; с. 18-19

[4]Yenə orada, s. 9

[5]Хади Атласи. История Сибири. Казань. "Татар. Кн. Изд-во", 2005 (tatarcadan tərcümə), həmçinin: http://protatar.narod.ru/Kitablar/HadiAtlasi/SibHis.html

[6]А. Окладников. Открытие Сибири. «Молодая гвардия», Москва, 1979; с. 163

[7]Michael de Certeau. Tarix ve Psikanaliz. Türkiye İş Bankası Kültür Yayınları. İstanbul, 2009

dəyərlər, subyektiv baxış, həm də intellektual güc, obyektiv düşüncə tərzi tarixçiyə xas olan, tarixçini tədqiqata həvəsləndirən cəhətlərdir. Əlbəttə ki, tarixçidə baş qaldıran yazıçılıq, ehtirasa qapılmaq, öz xəyalına qanad verib təməldən uzaqlaşmaq tarixin elm adına ziyan vurur. Gözəllikdən həqiqətə, ədəbiyyatdan tarixə doğru hərəkət baş yola çevriləndə tarixə inam artır! Həqiqət özü gözəldir (və dərindir)!

Tarixə dar, birölçülü, **birtərəfli, təksahəli baxış** (ancaq siyasi və ya diplomatik və ya hərbi və ya iqtisadi...) tarixi hadisəni və tarixi dövrü tam, hərtərəfli, obyektiv görməyə imkan vermir. Gerçəyin hər üzünü görmədən gerçək olanı tam anlamaq olmur. Gözəlin xarici görünüşü onu tam anlamaq, tanımaq və dərindən sevmək üçün kifayət etmir; gözəlin xasiyyəti, daxili aləmi, daxili gözəlliyi vacibdir. Başqa mənada ikitərəfli və ya çoxtərəfli baxış isə tarixi hadisəyə bu hadisədə iştirak edən tərəflərin hər birinin gözü ilə baxmaq deməkdir. Bu, tarixyazmadakı nisbiliyi nəzərdə tutmağa imkan yaradır; çay biri üçün sədd, maneədir, digəri üçün yoldur, vasitədir (ticarət, gəmiçilik, balıqçılıq... kimi).

Tarixçi çoxsaylı obyektlər arasından öz marağına və üzvü olduğu çağdaş cəmiyyətin maraqlarına uyğun olanları seçir. Yalnız bu baxımdan tarixçinin subyektiv fikri təbiidir. Bu, "tədqiqatçının maraq dairəsi var" deməkdir. Təbiətşünas da, riyaziyyatçı da belədir!

Xalqların, bölgələrin həyatında baş verən **kəskin, köklü dəyişmələr** tarixin dönüş nöqtələri kimi qiymətləndirilir. Bir xalqın və ya imperiyanın digər xalqı və ya ölkəni fəth etməsi nəticəsində dil, yaşayış tərzi, adət-ənənələr, cəmiyyəti idarə edən qanunlar ciddi dəyişmələrə məruz qala bilir. Yeni dini qəbul edərkən də bənzər dəyişmələr baş verir. İnqilablar, elmi-texniki tərəqqi, qlobalizasiya kimi hadisələr də dünyanı, həyatı böyük dəyişmələrə məruz qoyur, tarixin gedişinə, tarixin yazılmasına, tarixin bu və ya başqa dərəcədə təftiş olunmasına gətirib çıxarır. Məhz bu hallar yaşlı nəsillə yeni nəsil arasında fikir ayrılığına və ziddiyyət əmələ gəlməsinə səbəb ola bilir.[7]

## Tarixyazmadakı yalan və yanlışlar haqqında tarixçilər nə deyir?



*Sıma Tsyan*

Tarixyazma prinsipləri haqqında Şərq və Qərb mütəfəkkirlərinin fikirləri ilə müəyyən dərəcədə tanış olmuşuq. Tarixçinin yalan yazmasının səbəbləri nədir? Bir daha bu fikrə qayıdaq.

**Sıma Tsyan (Ssu-ma Ch`ien)** yazır: Confucious keçmişdən yazanda obyektiv və kritik olur, lakin öz dövrünü şərh edəndə açıq və dəqiq deyil, ehtiyatlıdır, üstüörtülü dillə yazır.



*Cornelius Tasitus*

**Cornelius Tasitus** (56-117) öz tarixyazma üsulununun əvvəlki Roma tarixçiləri ilə fərqli olduğunu qeyd edir. "...həqiqətin tərəddüdsüz tərəfində olmaq istəyən kəs öz söhbətini sevgiyə aludə olmadan və nifrət bilmədən aparmalıdır." O, "hadisələrin əsasən təsadüfdən asılı olan zahiri gedişini, cərəyanını deyil, onların mənasını və səbəblərini" anlamağa və yazmağa çalışır.[8] O, özündən əvvəlki Roma tarixçiləri haqqında "həqiqəti hər vasitə ilə təhrif etməyə başladılar... güclülərə xoş görünmək arzusu ilə və ya əksinə, onlara nifrət etdiklərinə görə"[9]



*Əbu Reyhan Biruni*

**Əbu Reyhan Biruni** (973-1048) özünün

[7]М. Мид. Культура и мир детства. Главная редакция восточной литературы. Москва, 1988. с. 322

[8]Project Gutenberg: Tacitus. The Histories. I.4.1

[9]Project Gutenberg: Tacitus. The Histories.I.1.1

məşhur "Kitab əl-Hind" əsərində yazılı xəbər və məlumatların doğru və yalan ola biləcəyini qeyd edərək, yalan yazıların əmələ gəlmə səbəblərini bir-bir sadalamağa çalışır. Bu yalanların kökündə məlumat yayanların maraqlarının bir-birinə zidd gəlməsi və xalqlar arasındakı qarşılıqlı davalar və çəkişmələr dayanır. Bəziləri yalan yazmağa vərdiş ediblər, uğur qazanmaq üçün belə yol seçiblər, onların təbiəti belədir. Bunlar məzəmmət edilməli ehtiras və qeyz, hirs üzündən baş verir. Digəri minnətdar olub sevdiyi və ya xoşagəlməz olub nifrət etdiyi adamlar haqqında yalan yazır. Üçüncüsü bir xeyir əldə etmək və ya pislik, yamanlıqdan ehtiyat edib qorxduğu üçün yalan deyir. Elələri də var ki, cahillikləri üzündən qaynaqlarda göstərilənləri korkoranə təkrar edirlər, xüsusilə məlumatı ötürənlər çoxdursa, bir zəncir əmələ gətirirlərsə, bu məlumat ötürənlər ilk dəfə qəsdən yalan uyduranla son nöqtəyə qədər, qulaq asana qədər vasitəçilik edirlər. Yalnız yalandan uzaq duran və həqiqətə sadiq olan şəxs təqdir və tərifə layiqdir. Yaxşı deyiblər ki, "hətta sizin əleyhinizə olsa belə həqiqəti deyin"... "Təlimlərin əsl mahiyyətini dərk edənlər onların içindən nağıl və əfsanə olanları seçib kənara atmalıdırlar (onları əyləncə və həzz almaq üçün dinləmək olar). Bunları heç cür həqiqətəbənzər və dürüst qəbul etmək olmaz".

**Rəşidəddin Fəzlulllah Həmadani** (1247-1318) "Cami`ət-təvarix" (Tarixlər toplusu) adlı məşhur ümumdünya tarixində (Rəşidəddinin rəhbərlik etdiyi müəlliflər qrupu tərəfindən 1300-1311–ci illər arasında farsca yazıldığı məlumdur) "düzgün tarix necə yazılmalıdır" sualını qoyur. Rəşidəddinə görə tarixçinin öhdəsinə düşən əsas vəzifə *nüfuzlu* və *tanınmış* adamların sözlərini və *etibarlı* və *çox işlənilmiş* kitablarda gətirilmiş məlumatları yazmaqdır. Əgər müəllif öz fantaziyası ilə bu məlumatlara hər hansı dəyişiklik etsə, onda bu mətn, sözsüz ki, əsassız və qeyri-düzgün olacaq. Tərtibçinin dardüşüncəliliyi və ya məlumat verənlərin səliqəsizliyi üzündən də müəyyən natamamlığın olması mümkündür. Vaxt qıtlığı və yaş da öz sözünü deyir.


***İbn Xəldun***

**İbn Xəldun** tarixçidən yüksək keyfiyyət və düzgün sifət, fəlsəfi düşüncə qabiliyyəti tələb edir. Bir çox tarixçilər tarixdə olmayan, öz zamanlarında olan fikir və dəyərlərdən bəhrələnib şərh və təhlil etmişlər, belə hadisələr "qınından çıxarılmış qılınc kimi maddələrindən təcrid olunmuşlar". Bu tarixçilər əsasən təqlid yolunu seçmişlər. Ümumiyyətlə, tarixyazmada yanlışlıqların səbəbləri nədir? Tarixçinin şəxsi qüsur və yetər-sizliyi. Bir məzhəbin, qrupun tərəfdaşı olaraq hadisələri bəlli çərçivə içində görmək. Güc və nüfuz sahiblərinə xoş gəlmək üçün hadisələri təhrif etmək. Fövqəladə və əfsanəvi hadisələrə, böyük hesab olunanlara, o cümlədən nüfuz və qüdrət sahiblərinə heyranlıq və güvənc. Və s. Lakin çox mühüm olan daha bir səbəb var: hadisələrin, dövrün təbiətini bilməmək və nəzərə almamaq, tarixi hadisələrin baş verdiyi umranın (burada-sivilizasiyanın, müəyyən mədəniyyətə malik toplumun, cəmiyyətin) təbiətini hərtərəfli bilməmək. Bu təbiət doğrunu yanlışdan ayırmaq üçün bir meyar verir. Umran - tarixi təbiətləri özünə mövzu edən elm sahəsidir. İbn Xəlduna görə, ona qədərki tarixçilərin hadisələri dəyərləndirmələrində tək bir üsul olub – tarixi nəql edənin (qaynağın) güvənilə bilən insan olması. Bu, subyektivdir və yeganə əsas ola bilməz. "Zahiri" tarixçilik keçmişdə olmuş hadisələri toplayıb nəql etməkdir. Əsl "batini" tarixçilik isə qaynaqları araşdırmaqla keçmiş hadisələrin necə və niyə baş verdiyini aydınlaşdırmaqdır.

**G.Vico** tarixçilərin səhvlərinə səbəb olaraq aşağıdakıları göstərir. 1. Keçmiş haqqında böyüdülmüş, olduğundan daha parlaq təsəvvür (keçmişə "qızıl dövr" kimi baxmaq və ya özgələrin keçmişini daha qaranlıq, zülmət, çirkin görmək – H.İ). 2. Xalqların özünü şöhrətli təsvir etməyə çalışması (məğlubiyyətlərdən geniş yazmamaq...) 3. Alimlərin şöhrətpərəstliyi (indiki alimlərin keçmişdəki insanları öz arşını ilə ölçməsi, özündən razı olaraq keçmişi öz bugünkü dəyər və ideyasına uyğun dəyərləndirməsi. 4. Qaynaqlardakı səhvlər. 5. Cəmiyyətlərin hər şeyi bir-birindən öyrəndiyi fikrini əsas götürmək, bununla insanın yaradıcı gücünü inkar etmək. 6. Qədim insanların onlara yaxın vaxtlar haqqında bizdən daha məlumatlı olmalarına kor inanc (dövrün şahidlərinin o dövrü guya həmişə bizdən daha yaxşı bilməsini qəbul etmək).

Tarixin dərin qatlarına getdikcə "bir dövrün özündən əvvəlki dövrü yaxşı bilməsi" –ilk baxışdan təbii görünən bu fikir çox zaman özünü doğrultmur. Bu, birinci növbədə qədimlərə getdikcə tarix elminin daha az inkişaf etmiş olması ilə bağlıdır.

*(Davam edəcək)*